*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 248-257* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.248*

# "Tuti" jurnalında ədəbiyyat məsələləri

**Vüqar Əhməd**
Filologiya elmləri doktoru, professor
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: vuqar.ehmed.63@mail.ru

**Annotasiya.** "Tuti" jurnalı istər ədəbiyyat məsələlərini, istərsə də publisistikanı geniş şəkildə əhatə edir. Təbii ki, jurnalda publisistikadan əlavə, satirik, eyni zamanda hüzünlü şeirlər də dərc edilmişdir ki, bu da, öz növbəsində, jurnalın ideya-bədii prinsipinə əsasən maarifçi əhəmiyyət daşımışdır. "Tuti" jurnalı öz iki il yarımlıq fəaliyyəti dövründə bəzən satirik, bəzən də dramatik yollarla Azərbaycanda baş verən ictimai-siyasi hadisələrə real şəkildə yanaşmış, xalqı bir çox mətləblərdən hali etmiş, elmi və dini cəhətdən maariflənməmiş insanların gözünü açmağa çalışmışdır. Jurnal dövrün satira məktəbi sayılan "Molla Nəsrəddin"in ənənələrini davam etdirsə də, spesifik xüsusiyyətlərə malik olmuş, özünəməxsusluğu ilə seçilmiş, hər şeyə qiymətini verə bilmiş, Sabirin təbirincə desək, düzü-düz, əyrini-əyri olaraq qələmə almışdır. Jurnalda Məmməd Səid Ordubadi, Səməd Mənsur və s. kimi dövrün ən qabaqcıl ziyalıları, mütərəqqi fikirli insanları fəaliyyət göstərmişlər. Bundan əlavə, Azərbaycanda karikatura janrının bünövrəsini yaratmış, fitri istedada malik Əzim Əzimzadə "Tuti" jurnalı ilə bilavasitə əməkdaşlıq etmişdir. Jurnalın üz qabığını, eyni zamanda səhifələrini onun çəkdiyi 200-dən artıq rəsm bəzəmişdi. "Tuti" jurnalında dərc olunan satirik şeirlərin, felyetonların, ədəbi parçaların və s. müəllifləri müxtəlif imzalarla çıxış etmişlər ki, məhz bu imzalar zamanı yetişdikcə, onların kimliyini artıq təkzibolunmaz şəkildə sübuta yetirmişdir. "Tuti" jurnalının məziyyətlərindən biri də əcdadlarımızdan bizə miras qalan milli-mənəvi dəyərlərə, adət-ənənələrimizə hüsnü-rəğbət, hörmət və ehtiram göstərməsi olmuşdur.
**Açar sözlər:** "Tuti", ədəbiyyat, satira, mətbuat, xalq, vətən

**Məqalə tarixçəsi:** göndərilib – 10.10.2025; qəbul edilib – 24.10.2025

# Literary issues in "Tuti" magazine

**Vugar Ahmed**
Doctor of Philological Sciences, professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: vuqar.ehmed.63@mail.ru

**Abstract.** "Tuti" magazine covers both literary issues and publicism extensively. Of course, in addition to publicism, satirical and at the same time sad poems were published in the magazine, which, in turn, had educational importance according to the idea-artistic principle of the magazine. During its two and a half years of activity, "Tuti" magazine, sometimes satirically and sometimes dramatically approached the political and social events taking place in Azerbaijan in a realistic way, made the people aware of many issues, tried to open the eyes of people who were not enlightened either scientifically or religiously. Although the magazine continued the traditions of "Molla Nasreddin", which is considered the school of satire of the time, it had specific characteristics, was selected for its uniqueness, was able to value everything, in Sabir's words, it wrote straight and crooked. The most advanced intellectuals and progressive people of the time, such as Mammad Said Ordubadi, Samad Mansur, and others worked in the magazine. In

addition, Azim Azimzadeh, who created the foundation of the caricature genre in Azerbaijan and has an innate talent, directly cooperated with "Tuti" magazine. The cover and pages of the magazine were decorated with more than 200 paintings by him. The authors of satirical poems, feuilletons, literary pieces, etc. published in "Tuti" magazine wrote under different signatures; namely these signatures uncontrovertibly proved the identity of the authors in due course. One of the merits of "Tuti" magazine was to show sympathy, respect and esteem to the national and moral values and traditions inherited from our ancestors.
**Keywords:** Tuti, literature, satire, press, people, homeland

**Article history:** received – 10.10.2025; accepted − 24.10.2025

## Giriş / *Introduction*

XX əsrin əvvəlləri Azərbaycan elmi, mədəniyyəti və mətbuatı heyrətamiz bir sıçrayışla tərəqqi etdi. Hacı Zeynalabdin Tağıyevin və başqa xeyriyyəçilərin vəsaiti ilə Rusiyada və Avropanın müxtəlif şəhərlərində ali təhsil alan gənclər elmi cəhətdən inanılmaz dərəcədə inkişaf etmiş, seçdikləri ixtisaslara mükəmməl şəkildə yiyələnmiş halda vətənə döndülər. Həkim, mühəndis, hüquqşünas kimi vətənə dönən bu gənclər bütün xalqın onlar kimi olmasını istəyirdilər. Bəzi gənclər xarici ölkələrdə təhsil almasa da, öz vətənində bir sıra ixtisaslara, peşələrə yiyələnmişdi. Bunlar da xarici ölkələrdə təhsil alan gənclər kimi xalqın maariflənməsini, elm-təhsil almasını, gözünün açılmasını, dünyanın gediş-gəlişini anlamasını, dostu ilə düşmənini tanımasını çox istəyirdilər.

## Əsas hissə / *Main Part*

Nəzərə almaq lazımdır ki, o dövrdə adını sinfi mübarizə qoyub xalqı sonu görünməyən bir uçuruma sürükləyən bolşevik mətbuatı tüğyan edirdi. Bu zaman Həsən bəy Zərdabi tərəfindən əsası qoyulmuş milli mətbuat ənənəsini davam etdirmək su və hava kimi zəruri sayılırdı. Əslində, yuxarıda qeyd olunduğu kimi, istər xaricdə ali təhsil alan, istərsə də doğma vətəndə mütərəqqi ziyalılar tərəfindən mükəmməl biliklərə yiyələnən insanlarımız bir araya gələrək milli mətbuat yaratdılar. Bu da, öz növbəsində, fırıldaqçı, saxtakar, münafiq ruhanilər tərəfindən mövhumata, fanatizmə, xürafata uymuş xalqın qəflət yuxusundan oyanmasına, düzü-düz, əyrini-əyri görməsinə, dostu ilə düşmənini tanımasına, fövqəladə bir şəkildə maariflənməsinə və inkişaf etməsinə səbəb oldu. 1903-cü ildən etibarən "Tiflisdə nəşr olunan "Şərqi Rus"dan başlayaraq milli mətbuatımız "Həyat" (1905-1906), "İrşad" (1905-1908), "Dəvət" (1906), "Təkamül" (1906-1907), "Tazə həyat" (1907-1908), "Məzhər" (1908-1911), "Tərəqqi" (1908-1909), "İttifaq" (1908-1909), "Səda" (1909-1911), "Həqiqət" (1909-1910), "Günəş" (1910-1911), "Nicat" (1910-1912), "Hilal" (1910-1911), "Yeni həqiqət" (1911), "Məlumat" (1911), "Yeni irşad" (1911-1912) qəzetlərini, "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907), "Füyuzat" (1906- 1907), "Həqaiq" (1907-1908), "Bəhlul" (1907), "Zənbur" (1909-1919), "Mirat" (1910), "Yeni füyuzat" (1910-1911), "Arı" (1910-1911), "İşıq" (1911-1912) və s. mətbu orqanları ilə daha da inkişaf edərək xalqı hər cəhətdən maarifləndirməkdən ötrü durmadan çalışmışdı.

Bu milli mətbuat orqanlarının sırasında Cəlil Məmmədquluzadənin rəhbərliyi ilə 1906-cı ildən Tiflisdə fəaliyyətə başlayan, "Molla Nəsrəddin" jurnalı başda olmaqla satirik mətbuat önəmli yer tuturdu ki, bunlardan biri də "Molla Nəsrəddin" ənənəsini davam etdirən "Tuti" jurnalı idi. Belə ki, "Tuti" jurnalı da "Molla Nəsrəddin" kimi xalqın sıxıntılarını, problemlərini açıb göstərir, onu müti vəziyyətə gətirən bir sıra meşşan insanları, eyni zamanda xalqa qənim kəsilmiş hakim dairələri satira yolu ilə tənqid edərək onların eyiblərini təkzibolunmaz dəlillərlə bəyan edirdi. Əfsuslar olsun ki, "Tuti" jurnalının ömrü də onun redaktorunun ömrü kimi qısa oldu və haqq-ədaləti sevməyən senzura tətbiq edən ünsürlər tərəfindən bağlandı.

"Tuti" jurnalı və onun redaktoru Cəfər Bünyadzadə haqqında filologiya üzrə fəlsəfə doktoru Aytən Quliyeva araşdırmalar aparmış, Cəfər Bünyadzadənin qısa ömrünü, yaradıcılığını təhlil etmiş, onun jurnalistik fəaliyyətini tədqiq etmiş, eyni zamanda bədii yaradıcılığına bir aydınlıq gətirmişdir. Aytən Quliyeva "Cəfər Bünyadzadə yaradıcılığına bir nəzər" məqaləsində onun "Dağarcıq", "Kəşkül və yaxud nəğmələr məcmuəsi", "Mən məktəb istəyirəm", "İgid oğul və yaxud vətən məhəbbəti" kitabçalarından, onların nəşrindən söz açmış, bu kitabçalardakı topluların nə qədər böyük əhəmiyyət kəsb etdiyini səciyyələndirmişdir [5].

Filologiya elmləri doktoru, professor Nazim Axundov (1924-1994) "Azərbaycan satira jurnalları" monoqrafiyasında "Tuti"yə xüsusi bölmə ayırmış, jurnalın ideya və məqsədini ətraflı şəkildə təhlil etmiş, onun Azərbaycan ədəbiyyatı, incəsənəti, ictimai fikri tarixində özünəməxsus yer tutduğunu, əsasən, liberal-burjua görüşlərinin müfafiəçisi kimi çıxış etdiyini vurğulamışdır [1].

"Tuti" jurnalının tam külliyyatını ərəb qrafikasından latın qrafikasına transfoneliterasiya edən AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnsitutunun böyük elmi işçisi Dilbər Rzayeva "Tuti" jurnalı haqqında məqaləsində "Tuti"nin ictimai-siyasi mövzularda, maarif, ədəbiyyat, incəsənət məsələlərinə dair, əsasən, xırda islahatçılıq, bəzən demokratik ruhda yazılar dərc etdiyini, eyni zamanda mütləqiyyət üsul-idarəsinə, müstəmləkə siyasətinə qarşı kəskin çıxışlar etdiyini qeyd edir [8, s.398].

Bundan əlavə, Cəfər Bünyadzadənin qardaşının nəticəsi Xəyal Bayramlı Cəfər Bünyadzadənin həyatına, mühitinə, eyni zamanda yaradıcılığına bir çıraq tutaraq, onun Azərbaycan ədəbiyyatında və jurnalistikasındakı dəyərini və əhəmiyyətini qeyd edir.Onu da qeyd edək ki, "Tuti" jurnalının saylarında 200-dən artıq karikatura çəkmiş Əzim Əzimzadə bu jurnalda "Avara rəssam", "Dəmdəməki" imzaları ilə çıxış edirdi.

Akademik İsa Həbibbəylinin araşdırmalarında vurğulanır ki, "Molla Nəsrəddin" ədəbi məktəbi çox geniş anlayış olub, özündə bir neçə yaradıcılıq istiqamətini, çoxsaylı yaradıcı qüvvələri birləşdirirdi: "Bir çox yaradıcılıq sahələri "Molla Nəsrəddin" ədəbi məktəbi içərisində, onun hüdudları daxilində xüsusilə inkişaf edərək daha qabarıq şəkildə nəzərə çarpıb. Beləliklə, vahid ədəbi məktəb daxilində bir neçə məktəb, necə deyərlər, məktəb içində məktəblər yaranıb. "Molla Nəsrəddin" satirik şeir məktəbi, mollanəsrəddinçi yeni nəsr, satirik publisistika və karikatura məktəbləri "Molla Nəsrəddin" ədəbi məktəbinin üzvi tərkib hissələridir. Doğrudur, bu məktəblərdən hər biri, xüsusən mollanəsrəddinçi satirik şeir məktəbi həm də müstəqil ədəbi məktəb təsiri bağışlayır. Hətta "Molla Nəsrəddin" şeir məktəbinin zəminində formalaşmış xüsusi bir Sabir satira məktəbi də nəzərə çarpmaqdadır. Yaxud "Molla Nəsrəddin" karikatura məktəbi ənənələri əsasında ayrıca Əzim Əzimzadə karikaturaçılıq məktəbinin yaranması da inkarolunmaz faktdır. Bütün bunlar nəinki "Molla Nəsrəddin" ədəbi məktəbinin əhəmiyyətini azaltmır, əksinə, bu möhtəşəm məktəbin geniş sənət imkanlarını nümayiş etdirir.

Yazıçı, müəllim, publisist, redaktor Cəfər Xocabəy oğlu Bünyadzadə (1890-1918) 1909-cu ildə Darülmüəllim Seminariyasını bitirmiş və "Nəşri-Maarif" və "Səfa" məktəblərində müəllimlik etmişdi. 1912-ci ildə Cəfər Bünyadzadə "Səfa" xeyriyyə cəmiyyəti yaratmış və bu cəmiyyətin nəzdində məktəb açmışdı. 1909-cu ildə, hələ 19 yaşında ikən felyeton yazmağa başlayan Cəfər Bünyadzadənin ilk felyetonları Əlabbas Müznibin redaktorluğu ilə nəşr olunan "Zənbur" satirik jurnalında dərc edilmişdi. O, "Səda" və "Sədayi-vətən" adlı mətbuat orqanlarında fəaliyyət göstərmiş, kiçikyaşlı uşaqlar üçün hekayələr qələmə almış, eyni zamanda məktəbli uşaqlar üçün üç hissədən ibarət "Kəşkül" adlı nəğmələr məcmuəsi yazmışdır. 1918-ci ildə mart qırğını vaxtı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. 1910-cu ildə "Səda" mətbəəsi onun "Mən məktəb istəyirəm" kitabını nəşr etdirir. Pedaqoq, publisist, tərcüməçi, jurnalist, yazıçı, naşir Haşım bəy Vəzirov (1867-1916), eyni zamanda "Səda" qəzetinin baş redaktoru idi. Belə ki, dövrün vətənpərvər və qabaqcıl ziyalılarının böyük bir qisminin: Nəcəf bəy Vəzirovun, Yusif Vəzir Çəmənzəminlinin, Mehdi bəy Hacıbababəyovun, Məmməd Səid Ordubadinin, Seyid Hüseynin və s.

əsərləri bu mətbəədə nəşr olunmuşdu. Mətbəədə Haşım bəy Vəzirovun başçılığı ilə dünya mütəfəkkirlərindən Azərbaycan xalqının maariflənməsi üçün çox vacib tərcümələr də həyata keçirilirdi. Məsələn, Abdinzadə Namidərin tərcümə etdiyi "Həzrəti Məhəmməd haqqında Kilforun rəyi", eyni zamanda L.N.Tolstoyun "Allah haqqı görər, amma tez aşkar etməz" kimi dəyərli əsərlər bu mətbəədə nəşr olunaraq oxucuların ixtiyarına verilmişdi.

Haşım bəy Vəzirov redaktorluq fəaliyyətinə 1907-ci ildə başlamışdı. O, 1907-1908-ci illərdə "Tazə həyat", "İttifaq" (1908-1909), "Səda" (1909-1911), rus dilində "Кафказец" qəzetini, eyni zamanda "Sədayi-vətən" (1911), "Sədayi-haqq" (1912, "Sədayi-Qafqaz" (1915-1916) qəzetlərini təsis etmiş, həmçinin 1915-1916-cı illərdə "Məzəli" satirik jurnalını nəşr etdirmişdi.

Cəfər Bünyadzadə çox gənc olmasına baxmayaraq, Haşım bəy Vəzirovun və onun ətrafına toplaşan mütərəqqi ziyalıların arasında bir növ nəşvü-nüma almışdı. Məhz bu da onun peşəkar bir jurnalist kimi yetişməsinə və 24 yaşında ikən "Tuti" jurnalının nəşrinə başlanmasına vəsilə olmuşdu. "Tuti" jurnalının nəşrində Cəfər Bünyadzadəyə neftxuda və balıq vətəgələri sahibi, böyük qardaşı Məşədi Adil kömək etmişdi. Məşədi Adil "Tuti" jurnalının nəşri üçün mətbəə avadanlığı da almışdı. Lakin Cəfər Bünyadzadənin məziyyətləri bununla bitmirdi, o, "Yetimlər məktəbi" yaratmış və yüzlərlə yetim, kimsəsiz uşağı həmin məktəbə götürmüşdü. Yüzlərlə yetim uşağın qayğısına qalan Cəfər Bünyadzadə yetim uşaqların zəngin biliyə və gözəl əxlaqa malik olmalarından ötrü dövrün ön sırada gedən mütərəqqi ziyalısı Hüseyn Cavidi həmin məktəbdə dərs deməyə dəvət etmişdi. Xəyal Bayramlı "Kulis.az"da bu barədə yazır:

*"Qubernator bağı Hüseyn Cavidlə Cəfər Bünyadzadənin daimi görüş yeri idi. Seyid Hüseyn yaxınlaşıb onlarla görüşür, Cəfərdən soruşur:*

*– Hə, bizim keçmiş "Yetimlər" məktəbində işlər necə gedir?*

*Cəfər də əlindəki qəzetlərə göz gəzdirərək fərəhlə deyir:*

*– Cavid əfəndi kimi müəllimi olan bir məktəbin işləri sən bilən necə gedər? Əla!"* [3]

Cəfər Bünyadzadə "Səfa" məktəbində sonralar çox tanınmış simalar: ədəbiyyatşünas alim Hənəfi Zeynallıya, şair və publisist Gültəkin Abidə, Azərbaycanın görkəmli aktyoru Məmmədəli Vəlixanlıya dərs deyib. Mövzudan kənara çıxsaq da, mütləq deməliyik ki, 1955-ci ildə rejissor Tofiq Tağızadə tərəfindən ekranlaşdırılmış "Görüş" bədii filmində "çayçı" obrazını oynayan və tamaşaçıların yaddaşında gözəl bir aktyor kimi qalan Məmmədəli Vəlixanlı müəllimi Cəfər Bünyadzadənin həm də klarnetdə milli musiqimizi yüksək səviyyədə ifa etdiyini söyləyirdi. Məhz bu da bir arxiv materialıdır ki, milli klarnet sənətinin guya erməni Karo Çarçiqulyanla başlamasına bir son verilsin və hamı bilsin ki, Azərbaycanda milli klarnet sənəti məhz erməni Karo Çarqulyanla yox, azərbaycanlı Cəfər Bünyadzadə ilə başlayıb.

Filologiya üzrə fəlsəfə doktoru Aytən Quliyeva "Cəfər Bünyadzadə yaradıcılığına bir nəzər" məqaləsinin "giriş"ində yazır:

*"XX əsr Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində özünəməxsus yer tutmağı bacaran qələm sahiblərindən biri Cəfər Bünyadzadədir. O, yaradıcılıq fəaliyyəti dövründə "Səda", "Sədayi-haqq", "Sədayi-vətən", "Zənbur", "Məktəb" və s. mətbuat orqanlarında çalışmışdır. C.Bünyadzadənin müxtəlif qəzet və jurnal səhifələrində "Vicdan", "Dursunəli", "Əldai", "Sərsəm Mirzə", "Kəşf edən", "Molla aşıq", "Müəllim Cəfər Bünyadzadə" və digər imzaları ilə yazıları dərc olunmuşdur. 1914-cü ildən həftəlik "Tuti" satirik məcmuəsi Cəfər Bünyadzadənin redaktorluğu ilə "Molla Nəsrəddin" jurnalı ənənəsində nəşr olunmağa başlamışdır. Bu dövrdə satirik üslub bir çox yazarların qələmi ilə rövnəqlənmişdir. "Məlumdur ki, o illərdə mənzum satira donmuş şüurları oyatmaq üçün daha kəsərli silah idi. Buna görə "Molla Nəsrəddin" jurnalı öz səhifələrində satirik şeirə geniş yer verir, satirik şairlərin yaradıcılığının inkişafına xüsusi qayğı göstərirdi"* [9, s.5].

*"Tuti" məcmuəsi "Molla Nəsrəddin" yolunun davamçısı olsa da, onu təkrar etmək məramında olmamışdır"* [5, s.17].

“Tuti” jurnalının təsisçisi Tağı Nağıyevin doğum tarixi dəqiq bilinmir, 1934-cü ildə vəfat etmişdir. Tağı Nağıyev ictimai-siyasi xadimdir. İlk dəfə Məmməd Əmin Rəsulzadə tərəfindən “Hümmət” Cəmiyyəti yaranarkən, onun fəal üzvü olmuşdur. Ümumiyyətlə, 1920-ci ilə, daha doğrusu, 11-ci Qırmızı Ordu Azərbycanı işğal eləyənə qədər, Tağı Nağıyev bir publisist və jurnalist kimi xalqının hürriyyətə qovuşması, istiqbala yetməsi, rifahının yüksəlməsi, xoşbəxt olması üçün fəaliyyət göstərmişdir. Onun belə vətənsevərliyini görən Məmməd Əmin Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyəti yaranan zaman ona yüksək vəzifə vermişdir. Müsavat Partiyasının qurucularından olan Tağı Nağıyev həm Bakı şəhər İctimai Özünüidarəsinin, həm də Bakı Dumasının üzvü idi.

“Tuti” jurnalında XX əsrin əvvəllərində çox tanınmış, görkəmli ziyalılar: Məmməd Səid Ordubadi, Yusif Vəzir Çəmənzəminli, Səməd Mənsur, Əli Nəzmi, Hacı Səlim Səyyah, Cəfər Cabbarlı, Məhəmməd Hadi, Məhəmmədhəsən Hacınski, Salman Mümtaz, Əli Məhzun İrəvani və b. iştirak edirdilər. “Tuti” jurnalının əsas ideyası xalqın sıxıntılarını, problemlərini göstərməklə yanaşı, dünyada baş verən ictimai-siyasi hadisələrə münasibət bildirmək, haqsızlığı, ədalətsizliyi tənqid etmək, eyni zamanda qan püskürən hakim dairələrin vəzifəyə, hakimiyyətə olan hərisliyini ifşa etmək idi.

“Tuti”jurnalı öz məramnaməsini bu şəkildə bəyan edir:

“Bəli, dünyanın belə şuluq vəqtində ərsəyə gəldim:

“Əuzu-billəhi minəş-şeytanir racim”

Sizdən dəxi xahiş edirəm ki, bir az bənimlə müdara edib, çox da bəni sığma-boğmaya salmayasınız.

Nə qədər olsa da, insan kimi danışa bilmədiyimdən, işarələrlə keçinəcəgimə acığınız tutmasın.

Bilirəm indi ürəyinizdən keçirirsiniz ki, “Bulardan fayda yoxdur, məsləkindən danış görək nə karəsən?” Xub öylə isə başlayaq, bir kəlmə “Tuti” “ulul-əzm”dir, yəni özündən qabaq gəlmiş məzhəkə jurnallarının heç birinin məsləkini tamamilə təqib etməyəcəkdir: İntiligentlərimiz, advaqatlarımız, doktorlarımız yanında lazımsız görünən milli içləri islahə, və qara camaatla yoldaş olub onların etiqadlarını öz dinlərinə həqiqəti bir surətdə eyləməyə çalışacağıq. Amma öz aramızdır, çox dərin getdim ha, lap qazet yazanlar kimi yazdım.

Tuti, ayıb olmasın dil və imla məsələmizə də əl qatacaqdır. Siz Allah, gülməyin, bir də övrətlərdən yazacaq! Əgər-əsgigimiz çox olduğundan, Tuti də çox şeylərdən yazacaqdır. Tuti heç ömrünüzdə istəmədiyiniz sözlər ilə sizi o qədər güldürəcəkdir ki, lap bən nə bilim olacaq. Bən axır sizdən lap başda xahiş etdim ki, bəni çox sığma-boğmaya salmayın. Bu “məslək” sözünü haradan tapıb ortaya saldınız ki, bu qədər mətləb uzandı. Yəni “məslək” siz iş keçməz?

Nə üçün pəs bir çox milyoner cavanlarımız onsuz da keçinirlər? “Anna”lar ölməyibdir ki? Hələ bu məsələ sonrakı məsələdir.

İndi əgər buraya kimi yazdıqlarımdan bir şey başa düşmədinizsə, məcmuəmizin başında gedən şəklə bir diqqətlə bakınız. O bənim məsləkimdir: Sağda bir çəmənlik və solda bir xəzinəzar bağ görünür. O bağda qurumuş bir ağacdan ağzı sınmış bir qəfəs asılmışdır. Oradan xilas olub özüm çəmənligə tərəf durmuşam. Arzum budur ki, siznən bahəm, inşaalah həmən çəmənligə yetişib çayın kənarında bülbüllərin çəh-çəhləri eşidilən bir məqamda bürkümüzü yanımıza qoyaraq çirt çubuğuna xod verək”. Amin”.

Göründüyü kimi, “Tuti” öz “məramnaməsi”ni “Əuzi billəhir-minə-şeytanir-rəcim” sözləri ilə başlayır. Yəni Allahın dərgahından qovulmuş şeytana lənət olsun! Bu da öz növbəsində “Tuti” məcmuəsinin yalnız haqq-ədaləti, gerçəyi, reallığı meydana gətirəcəyini bəyan edir. Bundan əlavə, “Tuti” özündən qabaq yaranmış məzhəkə jurnallarının heç birinin məsləkini təqib etməyəcəyini bildirir. Bu da “Tuti”nin özünəməxsus spesifik xüsusiyyətlərə malik olduğunu bildirir və jurnalın külliyyatını oxuduqca həqiqətən də heç bir satirik məcmuəyə bənzərlik gözə dəymir, hərçənd ki, hədəf dahi Sabirin təbiri ilə desək; “Mən sail olum, cümlə-cahan batsa da, batsın”dır, lakin hər mətbu orqanının özünəməxsus məramnaməsi olduğu kimi, “Tuti”nin də orijinallığı vardır. Milli istiqlal ideyalarının bədii əksi, münafiq, fırıldaqçı, saxtakar din xadimlərinin ifşası, heç nəyi

bacarmayan, əlindən heç bir iş gəlməyən, fəqət təkəbbüründən yerə-göyə sığmayan lovğa insanların məsxərəyə qoyulması, zülmkar, qoluzorlu, vicdansız adamların rəzalətinin aşkar dəlillərlə göstərilməsi, hakim dairələrin qudurğanlığının, haqsızlığının tənqidi, meşşan və əxlaqsız ünsürlərin simasızlığının bəyan edilməsi, cahil insanların həm elmi, həm də dini cəhətdən maarifsizliyi, mövhumata, xürafata, fanatizmə sürüklənməsi, o cümlədən ictimai-siyasi hadisələrin əks etdirilməsi və s. jurnalın əsas qayəsi və ali məqsədi idi.

Məsələn, "Tuti"də Cəfər Bünyadzadə "Nadinc" imzası ilə dərc etdiyi "Ədəbiyyat" şeirində Qafqaz müsəlmanlarının qəflətdən ayılıb elmə iqdam etməsini, lakin bizim müsəlmanların hələ də qəflət yuxusunda olduğunu bədii ibarələrlə göz önünə gətirir:

*Bəh, bəh! bu nə hümmət? Nə həmiyyətdir, a Tuti?*
*Bir qeyrətə bax!... gör neçə millətdir, a Tuti.*

*Qəflətdən ayıldı dəxi Qafqazdakı İslam*
*Pirilə cavan elmə tərəf eyləyir iqdam.*
*Övladi-Vətən cümlə olub elmə tərəf ram,*
*Biganə bütün bizlərə həsrətdir a Tuti.*
*Bəh, bəh nə hümmət, nə həmiyyətdir, a Tuti? "Nadinc"* [2, s.2]

"Pampuşalı" imzası, əsasən, Səməd Mənsura aid idi. Səməd Mənsur da bir çox satirik şairlər kimi, Sabirdən bəhrələnmişdir. Səməd Mənsurun bu şeiri Sabirin "İntiligentik gəzərik naz ilə" şeirinə nəzirədir:

*İntiligentik, gözəl oğlanlarıq,*
*Heç qəzətə, jurnala aldanmarıq.*
*Zəhmət, əzima çəkib aldıq elm,*
*Texnikə, tibb, elm hüquq və nücum,*
*Darülticarə bizə olmazmı dum?*
*Bizlərə bəndə necə olmaz ümum?*

*....Cümlə avamlar bizə bir "zad" dolar.*
*Canları çıxsın, nə üçün yatdılar!*
*Çalmalılar onları aldatdılar,*
*Xalqı nədən çalmalılar satdılar?*
*Biz də satıb işləri samanlarıq,*
*Çox qəzətə, jurnala aldanmarıq. "Pompuşalı"* [7, s.24]

"Tuti" təkcə satirik jurnal deyildi. Belə ki, bu məcmuədə bəzən bəşər övladının, xüsusilə də tarix boyu soyqırımlara, qırğınlara məruz qalmış müsəlmanların faciələri, müsibətləri oxucusunu hüzünləndirən, göz yaşları axıtmağa sövq edən şeirlər də dərc olunurdu.

Tarixdən məlumdur ki, 1915-ci ildə Çar Rusiyası daşnak firqəsinin başçısı Andronik Ozanyanla birləşərək, Anadolunun Qars vilayətinə hücum edərək, on minlərlə günahsız və silahsız türk müsəlmanını kiçikyaşlı cocuqdan qocaya qədər vəhşicəsinə qətlə yetirmişdir. Hər müsəlman türkün balasını öz balası bilən Səməd Mənsur, təbii ki, buna biganə qala bilməmiş, "Tuti" jurnalında hüzünlü lövhələrlə bu müsibəti əks etdirmiş, eyni zamanda bu şeirdə bu faciəyə biganə qalan ruhaniləri tənqid etmiş və xalqın zəngin zümrəsini o bədbəxtlərə yardıma, köməyə səsləmişdir:

*Ey tuği-zalim ilə o Qars doğrayanları,*
*Vey ac, susuz, himayəsiz, evsiz qalanları.*
*Fəryadsız yetərsə fələklər qulağına,*
*Odları yaxsa, ahınızın asimanları.*

*Qafqazlılar qulağına yetməz fəğanınız,*
*Bikar bizdə kimdir eşitsin fəğanları.*
*Hər millətin həyatına baxsan olub onun,*
*Ruhani, əğriya, ürafa pasibanları.*
*Ruhlarımız qüsələvü heyzü cənabətə,*
*Sargərmdir, daha nə deyim rövzəxanları.*
*Meydan ki, boşdu, yabların quyruğun eşin,*
*Ey mərd millətin canalan pəhləvanları. "Pampuşalı"* [6]

Səməd Mənsur vaxtaşırı dərin məna kəsb edən satirik şeirləri ilə çıxış etdiyi "Tuti" jurnalını lirik bir obraz kimi götürərək bütün günü yeyib-yatan, binamus atalar tərəfindən kiçikyaşlı qızları satın alıb yatağına salan, on minlərlə günahsız insanın soyqırıma məruz qalmasına göz yuman, eyiblərini söyləyənlərə hələ utanmadan müqəddəs Qurani-Kərimin qənim olmasını istəyən əxlaqsız kişilərin rəmzi mənada məhz "Tuti"dən şikayətləndiyini məzhəkə və məsxərə üsulu ilə satira atəşinə tuturdu:

*Ancaq gecələr dolma, fisincan mənim olsun!*
*On yaşlı qaraqaşlı Tükəzban mənim olsun!*
*Getsin oxumuşlar yanar odlara qalansın,*
*Qars, Ərdəhanın kəndləri əğyarə talansın,*
*Aclar düşələr düzlərə avarə dolansın,*
*Çılpaq qalalar tozlara, torpağa bulansın,*
*Sərsüfrə də yanımda muridan mənim olsun!*
*Hər kim mənə irad edə, Quran qənim olsun!*
*Fikrim budu, ey "Tuti" ki, hər yan mənim olsun,*
*Gəldi Ramazan, ərseyi-meydan mənim olsun* [13].

"Hərdəmxəyal" imzası ilə "Molla Nəsrəddin" və digər satirik məcmuələrdə, o cümlədən "Tuti" jurnalında felyetonlarla, satirik şeirlərlə çıxış edən Məmməd Səid Ordubadi Romanovlar sülaləsinin 300 illik hakimiyyətinin sona yetəcəyini əvvəlcədən duyaraq poetik lövhələrlə satira atəşinə tuturdu:

*Rusiyyədə üçyüz sənə bir amiri-mütləq,*
*Birdən-birə başı gicəlib vurdu məələq,*
*İnsaf idi, aya, pozula bir belə rövnəq?!*
*Hürriyyət olub da "dayımız" əngələ düşdü,*
*Bilməm bu nasıl atəş imiş məşələ düşdü* [11].

"Tuti" jurnalı bütün saylarında vətənpərvərliyi təbliğ edir, eyni zamanda xalqı münafiq din xadimlərinin uydurduqları fanizimdən, mövhumatdan, xürafatdan ayılmağa, dünyaya açıq gözlə baxmağa çağırırdı. Saxtakar din xadimlərinin ifşasını jurnalistik fəaliyyətinin hədəfi kimi seçən M.S.Ordubadi bir sıra cahil insanların öz xalqına zülm etməklə yanaşı, qəflət yuxusunda yatmağının nə qədər böyük bir bəla olduğunu satirik boyalarla təsvir edir:

*Hürriyyət ikən zülmdə tüğyan elə, qorxma!*
*Məzlumu əzib hali-pərişan elə, qorxma!*
*Dutsa qəzəbin bir-iki də qan elə qorxma!*
*Var ləzzəti bir az kişi biqeyrət olursa,*
*Yat, yat, maralım, yat, nə qədər fürsət olursa!*
*Bəy-xanə nə lazım, de görüm, ləfzi-müsavat?*
*Bəysən yeyib-iç, işləmə, rahatca uzan-yat,*
*Yoldan çıxarar milləti axırda bu adat,*

*Hürriyyət işi xalqda gər adat olursa,*
*Yat, yat, maralım, yat, nə qədər fürsət olursa!* [12]

Onu da qeyd edək ki, M.S.Ordubadinin "Tuti" jurnalında onlarla satirik şeirləri dərc edilmişdir. Məsələn, "Əcəb kim bir də ərbabi-cəhalət mühfəl vardır (1917 № 2, səh.2), "Biganə gəlib haqqına zor etsə, danışma" (1917, № 3), "Ağbaşlar ictimaininin qətnaməsi" (1917 № 16 səh.2) və s. M.S.Ordubadi "Tuti" jurnalında qoluzorlulara, zalımlara kor-koranə mütilik edən cahil və avam insanları özünəməxsus şəkildə tənqid edirdi:

*Biganədən hər növ cəfa yetsə qəbul et,*
*Allaha təvəkkül deyərək qəbrə nüzul et,*
*Heç kəslə tifaq etmə, edibsən də nikul et,*
*Yüz yay gələ, gül açma, qızarma, hələ kal ol!*
*Hər gün dalı get, cəhd elə, dilbəndi zaval ol!* [10]

Məlumdur ki, o dövrdə xalqı saxta kəlamlarla, sözlərlə aldadıb beyinlərini zəhərləyən, mövhumata, xürafata sürükləyən bir sıra münafiqlər mövcud idi. İslam ehkamlarına, İslamda "firui-din"ə görə namaz qılmaq bir müsəlman üçün hər şeydən vacibdir. Çünki bu zaman insan bütün ağrılardan, acılardan, dərdlərdən-kədərlərdən kənar olur, onu yaradan Allahına səcdə edərək qəlbən rahatlıq tapır. Məsələ burasındadır ki, Allah Yaradandır, onun heç bir şeyə ehtiyacı yoxdur, əksinə bütün yaranmışlar ona möhtacdır. Allah namazı da, orucu da insan üçün yaradıb ki, insan pis işlərə meyil eləməsin, əxlaqı təmiz olsun, eyni zamanda sağlam olub ömrü uzansın. "Tuti" bütün bunları çox gözəl anlayır və xalqa münafiq mollaların uydurduğu cəfəngiyyatlardan uzaq olmağı tövsiyə edirdi. Bu lətifə də öz növbəsində xalqı münafiqlərə, şarlatanlara inanmamağa çağırır, heç bir şeyin namazdan daha xeyirli olmamasını namaz qılmayan bir insanı şeytanın hansı şəkildə yoldan çıxarmasını bəyan edir, eyni zamanda saxtakar şarlatanların cahilliyini məsxərəyə qoyur, eyni zamanda Lakin məsələ burasındadır ki, müqəddəs Qurani-Kərimdə "Namaz qılmayana demə niyə namaz qılmırsan, vaxt var idi, sən də namaz qılmırdın, Biz səni imana gətirdik, – ayəsi var. Bu da, öz növbəsində, Allaha inandığı halda namaz qılmayan insanın heç də cəhənnəm odunda yanacağını bildirmir. Yəni Allah istədiyi zaman hansısa bəndəsini namaza gətirəcəkdir. Şeytan, daha doğrusu, mələk niqabı taxmış münafiq ruhani özü tamamilə namaz qılmadığı, şərab içdiyi, qumar oynadığı halda, insanları imandan qaçırtmaqdan ötrü uydurduqca uydurur:

"Bir mouzən azanını günəş çıxarkən oxumuş, tamamında (الصلاة خير من النوم) əssalah xayr minəlnivmu yəni: Namaz yuxudan xeyirlidir! Deyərkən ərəbin biri pəncərədən başını uzadıb ( النوم خير من هذه الصلاة) əlnivmum xayır min hədhih əlsalah Yəni: yuxu bu vəqtdə qılıncaq namazdan xeyirlidir! – demiş.

Bir gün vəzdə aləmdə hər söz söyləyən qəlbimdə bir nəşə törədir-demiş. Qulaq asanlardan bir zərif: Ya Şeyx. əgər natiq-söz söyləyən eşşək olsa necə? – deyincə, sus eşşək! deyərəm-demiş.

Bir davada ayaqlarını güllə götürmüş bir zabit şiddətli surətdə bir baş ağrısına uğradı. Təbib bir çox əlac edərsə də, bir növ ağrıya çarə edə bilməz. Zabitin canı sıxılıb bir gün təbibə: -Əlbəttə bunun dəfinə bir şarə tapmalısan!" – dedikdə zabit deyər ki: Son bir tədbirimiz qaldı. Bir dəfə də ayaqlarınızı isti suya qoyaq!

Bir binamaz ilə şeytan yoldaş olmuş. Şeytan binamazın Allaha səcdə etmədigini görüncə demiş ki, Paho, bən həzrət adama bir dəfə səcdə etməməgimə görə dərgah haqqında qavlanıb şeytan oldum. Sən isə hər gün beş vəqt namazda bu qədər səcfə etməklə əmr olunmuşkən heç birini etməyirsən. Acaba sən nə olacaqsan?" [14]

XX əsrin əvvəllərində ilk dəfə Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə "Həyat" qəzetinin doğma dilimizdə nəşr edilməsindən sonra Bakıda bir-birinin ardınca çox sayda milli mətbuat məcmuələri yarandı. Milli mətbuatların yaranması, eyni zamanda Azərbaycanda ziyalıların da artmasına, elm-təhsilin inkişafına inanılmaz dərəcədə fayda verdi. Dünyaya açıq gözlə baxan

insanlarımız bu qəzet-jurnalları oxuduqca elmi cəhətdən maariflənir, maarifləndikcə də doğma xalqını maarifləndirməkdən ötrü vasitələr axtarır, bunun da ən yaxşı variantını imkanları daxilində həm milli mətbuatda iştirak etməkdə, həm də bilavasitə yeni, orijinal mətbu orqanları yaratmaqda görürdülər. Bu maariflənmənin bir fəziləti də uşaqların savadlanması ilə bağlı idi. Belə ki, XX əsrin əvvəllərində, eyni zamanda uşaqları da maarifləndirmək, elmləndirməkdən ötrü mütərəqqi qəzet-jurnalları oxuyan ziyalılarımız A.A.Bakıxanovun, S.Ə.Şirvaninin "Uşaqlarımızı savadlandıraq" ənənəsini davam etdirərək, yeni üsullu məktəblər açır, uşaqların beynini yormayan rahat, asan qavranan dərsliklər tərtib edirdilər.

Bundan əlavə, istər üst qabığında, istərsə də səhifələrində məzəli şəkillər, karikaturalar olan satirik jurnallar uşaqların diqqətini cəlb edirdi. Bu da, öz növbəsində, onların oxuyub-yazmağı öyrənməyə, bilik və savad almağa həvəsini artırırdı. Uşaqların diqqətini çəkən məcmuələr isə əsasən, satirik məcmuələr idi ki, mütərəqqi ziyalılarımız məhz bu satirik jurnalların nəşrindən sonra uşaqların zehnini inkişaf etdirməkdən, onlarda elmə-təhsilə güclü maraq oyatmaq məqsədilə uşaq mətbuatı yaratmışdılar.

"XX əsrin əvvəllərndə Azərbaycanda ictimai-siyasi və mədəni həyat canlanırdı: maarif, məktəb və mətbuat xalqın tələbatına çevrilmişdi. "Zənbur", "Kəlniyyət", Babayi-Əmir", "Tuti", "Bəhlul", "Lək-lək" kimi satirik jurnalların meydana çıxması uşaq mətbuatının yaranmasına səbəb oldu. Əsrin əvvəllərindən nəşrə başlayan "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907), "Məktəb" (1911-1920) məcmuələri uşaq mətbuatı kimi milli uşaq ədəbiyyatının inkişafına geniş yol açdı" [4, s.93].

## Nəticə / *Conclusion*

Göründüyü kimi, "Tuti" də uşaq mətbuatının yaranmasına vəsilə olmuşdu və təbii ki, bu da, öz növbəsində, "Tuti" jurnalının zamanında Azərbaycan xalqı üçün nə qədər faydalı olduğunu bəyan edirdi.

Bütün bunlar "Tuti" jurnalının məramnaməsini, ideyasını, ali məqsədini bəlli edir və jurnalın cəmisi iki il yarımlıq fəaliyyətində Azərbaycan milli mətbuatında nə qədər dərin bir iz buraxdığını göstərir.

## Ədəbiyyat / *References*

1. Axundov N. Azərbaycan satira jurnalları (1906-1920-ci illər) / N.Axundov. – Bakı, 1968.
2. Bünyadzadə C. Ədəbiyyat. – Bakı: Tuti, 1915, 3 yanvar. № 2.
3. Ermənilər onu öldürüb neft quyusuna atmışdılar // URL: https://kulis.az/xeber/senet/ermeniler-onu-oldurub-neft-quyusuna-atmisdilar-bas-nazirin-qardasi-haqqinda-55843
4. Əhməd V.M. Azərbaycan uşaq ədəbiyyatı / V.M.Əhməd. – Bakı: Müəllim, 2006.
5. Quliyeva, A. Cəfər Bünyadzadə yaradıcılığına bir nəzər. – Bakı: Elmi əsərlər, 2022. № 2 (15.
6. Mənsur S. Ey tuği-zalim ilə o Qars doğrayanları. – Bakı: Tuti, 1915, 31 yanvar. № 6.
7. Mənsur S. İntilligentik gəzərik naz ilə. – Bakı: Tuti, 1915, 24 yanvar. № 5.
8. Molla Nəsrəddin Ensiplopediyası / tərt. ed. və çapa hazırl. V.Əhməd. – Bakı: Elm, – 2020, 466 s.
9. Mollanəsrəddinçi şairlər / tərt. ed.: Zamanov A., Əliyev K. – Bakı: Yazıçı, – 1986, 512 s.
10. Ordubadi M.S. Biganədən hər növ cəfa yetsə qəbul et. – Bakı: Tuti, 1916, № 25.
11. Ordubadi M.S. Gap. – Bakı: Tuti, – 1916, № 13.
12. Ordubadi M.S. Yat, yat, maralım, yat. – Bakı: Tuti, 1917, № 14.
13. Səməd Mənsur. Əsərlər / nəşrə hazır. və ön söz. S.Xəyal. – Bakı: Nurlan, 2008, 144 s.
14. Şeytan. – Bakı: Tuti, 1916, 2 oktyabr. № 34.

## Литературные темы в журнале «Тути»

**Вугар Ахмед**
Доктор филологических наук, профессор
Институт литературы имени Низами Ггянджеви НАНА
E-mail: vuqar.ehmed.63@mail.ru

**Резюме.** Журнал «Тути» охватывал широкий спектр литературных и публицистических тем. Он публиковал литературные произведения различных жанров. Наряду с другими публикациями в журнале печатались и стихи, что соответствовало художественной концепции издания. За два с половиной года своей деятельности журнал «Тути» в сатирической и драматической формах реалистично отражал общественно-политические события, происходившие в Азербайджане, способствовал просвещению народа по различным вопросам и стремился пробудить сознание тех, кто не имел научного или религиозного образования. Хотя журнал продолжал традиции «Молла Насреддина», считающегося сатирической школой своего времени, «Тути» обладал специфическими чертами, отличался своей самобытностью. Издание стремилось к объективности в оценке происходящего, по выражению М.А. Сабира, «изображало правду как правду, а кривду – как кривду». В журнале работали передовые, прогрессивно мыслящие интеллигенты своего времени, такие как Мамед Саид Ордубади, Самед Мансур и другие. Особое значение имело сотрудничество с выдающимся художником и основоположником жанра карикатуры в Азербайджане Азимом Азимзаде, чьими произведениями – более 200 рисунками – оформлялись обложки и страницы журнала. Авторы сатирических стихов, фельетонов и литературных отрывков, публиковавшихся в журнале «Тути», выступали под разными псевдонимами, и со временем именно эти подписи стали убедительным доказательством их истинной идентичности. Одним из достоинств журнала «Тути» было проявление искреннего уважения к национально-духовным ценностям, унаследованным от наших предков.
**Ключевые слова:** Тути, литература, сатира, пресса, народ, родина